2025

AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

# Bülleten
# May

# Azərbaycan Sığortaçısının Şərəf Kodeksi

Biz, Azərbaycan Sığortaçılar Assosiasiyasının üzvləri milli mənafeyə, iqtisadi inkişaf və siyasi sabitlik üçün əsasları təmin etməyə qadir yeni sosial-iqtisadi münasibətlərə cavab verən yeni ideoloji doktrinanın yaradılmasının zəruriliyini dərk edərək ümumbəşəri dəyərlərə, hamı tərəfindən qəbul edilən mənəvi prinsiplərə, mənəviyyata və hüquqa əsaslanan sığortaçının şərəf kodeksini işləyib hazırladıq. Sığortaçı bir maliyyə müəssisəsi olmaqla, mahiyyət etibarilə kommersiya mənəviyyatının qoruyucusudur, təmizliyi, doğruluğu, ağıllılığı, işgüzarlığı, dəqiqliyi həvəsləndirir və bədməsrəfçiliyi, qumar zövqünü, ağılsızlığı, şərəfsizliyi amansızcasına pisləyir.

Belə bir şəraitdə prosesin bütün iştirakçıları – istehsalçılar, satıcılar, istehlakçıların rifahı, ümumiliklə cəmiyyətin tərəqqisi xeyli dərəcədə sığortaçının xarakterindən, səmərəli əməyindən, onun mədəniyyətindən və mənəviyyatından asılıdır.

Sığortaçı özünün gündəlik peşə fəaliyyətində buna can atır:

- Verdiyi sözə əməl etmək. Onun sözü hər cür imzalardan, möhürlərdən və ya vekselərdən qiymətli və etibarlıdır;

- Özünə, öz tərəfdaşlarına və rəqiblərinə münasibətdə ləyaqətli davranmalı. Sığortaçı qanunsuz və natəmiz işdə iştirakdan qətiyyətlə çəkinir və ona yol verməməkdən ötrü mümkün olan hər şeyi edir;

- Müştərinin, tərəfdaşın mənafeyi üzərində öz mənafeyi qədər çalışır. Bu hamı üçün uğurların və rifahın rəhnidir;

- Sirləri qoruyub saxlamaq. Sığortaçı üçüncü şəxslər və təşkilatlar tərəfindən ona etibar olunmuş məxfi məlumatların qorunub saxlanmasında mütləq dərəcədə etibarlıdır;

- Sözlərində və əməllərində dəqiq olmalı. Sığortaçı kiməsə zərər gətirən hər hansı fəaliyyətdən çəkinir. Birincilik uğrunda mübarizədə yalnız ləyaqətli rəqabət qanuni vasitə ola bilər. Kommersiya uğruna, şan-şöhrətə, karyeraya kiminsə hüquqlarının və mənafelərinin, kiminsə ləyaqətinin və ya rifahının hesabına nail olunmamalıdır;

- İnsan, cəmiyyət, təbiət qarşısında məsuliyyət daşımalı. Sığortaçı siyasətdən kənardır. Əgər onların fəaliyyəti cəmiyyətin qanunları ilə ziddiyyətə girirsə və ya ümumbəşəri dəyərlər anlayışı ilə üst-üstə düşmürsə, sığortaçı şəxsi, partiya, qrup və ya qurumların mənafelərinin yedəyində gedə bilməz;

- Millətlərarası mədəni münasibətlərin qərarlaşmasına, beynəlxalq sığorta əlaqələrinin inkişafına kömək etməli, iqtisadi fəaliyyətin istənilən formasında millətçi yanaşma tərzini rədd etməli;

- Sığorta şirkətləri arasındakı münasibətlərdə yekdillik, həmrəylik və qarşılıqlı yardım prinsiplərinə əməl etməli, korporativlik və etimad ruhunu təsdiq etməli;

- Humanizm nümayiş etdirməli. Sığortaçı ölkənin sahibkarlıq ənənələrindən: xeyriyyəçilik və şəfqətdən kənarda qala bilməz. Sığortaçı ehtiyacı olanlara kömək etməyə hazırdır, bunun üçün əlində olan bütün imkanlardan istifadə edir.

İnsanın şərəf və ləyaqəti – Sığortaçı üçün istənilən digər dəyərlərdən yüksəkdə durur!

## Sığorta sahəsində aparılan ikinci tədqiqat işi təqdim olunub



Azərbaycan Sığortaçılar Assosiasiyası və ASA Tədris Mərkəzinin birgə əməkdaşlığı ilə aparılan sayca ikinci tədqiqat işinin təqdimat mərasimi keçirildi.

“Həyat sığortasının insan həyatında rolu” mövzusuna həsr olunan tədqiqat işində “Niyə Azərbaycanda əhalinin həyat sığortası məhsullarına kütləvi marağı yoxdur?" və digər bu kimi suallara cavablar axtarılıb.

Tədqiqat prosesində Azərbaycan Mərkəzi Bankı və həyat sığorta şirkətləri ilə əməkdaşlıq edilib.

Tədqiqata 1011 nəfər əhali, sığorta şirkətlərindən 146 nəfər nümayəndə və 32 nəfər peşəkar sığorta eksperti respondent olaraq cəlb edilib.

Təqdimat mərasimində iştirak edən şirkət rəhbərləri və nümayəndə heyəti tədqiqatın nəticələrinin sığorta şirkətlərinin biznes strategiyalarında nəzərə alınmasının və həmin nəticələrə uyğun müvafiq layihələrin həyata keçirilməsinin vacibliyini bir daha vurğulayıblar.

Qeyd edək ki, 2025-ci il ərzində Azərbaycan Sığortaçılar Assosiasiyası və ASA Tədris Mərkəzi tərəfindən sığorta sahəsində daha iki tədqiqat layihəsinin həyata keçirilməsi planlaşdırılır.

## Mərkəzi Bank rəhbərliyi sığortaçılarla görüşüb



Mərkəzi Bankın sədrinin birinci müavini Əliyar Məmmədyarov sığorta sektorunun rəhbər şəxsləri ilə görüşüb.

Görüş zamanı cari ilin birinci rübü üzrə sığorta sektorunun fəaliyyət nəticələri, qlobal makroiqtisadi trendlər, mövcud çağırışlar və inkişaf perspektivləri geniş müzakirə olunub.

Görüşdə həmçinin sığorta məhsullarının nüfuzetməsinin yüksəldilməsi, könüllü və icbari sığortanın təşviqi, eləcə də sektorda dayanıqlıq prinsiplərinin tətbiqinin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

## ASA kollektivi Fəxri Xiyabanda olub



10 May müasir və müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü günüdür. Bununla əlaqədar olaraq, Azərbaycan Sığortaçılar Assosiasiyasının rəhbərliyi və kollektivi Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edərək, məzarı önünə gül dəstələri qoyublar.

Daha sonra ASA kollektivi Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın əziz xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoyublar.

## ASA-nın İcraçı direktoru “Heydər zirvəsi”nə yürüş edib



Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru Elmar Mirsalayev Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə Böyük Qafqaz sıra dağlarının Başdağ silsiləsinin Qızıl Qaya massivində, dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən və Azərbaycanın Ümumilli Lideri Heydər Əliyevin adını daşıyan “Heydər zirvəsi”nə yürüş edib.

## ASA jurnalistlər arasında həyat sığortası mövzusunda yazı müsabiqəsi elan etdi




"Kredit götürənlərin həyat riskləri sığorta təminatında" mövzusu üzrə elan edilən yazı müsabiqəsində I, II və III yerləri tutan jurnalistlərə müvafiq olaraq 1500, 1000, 750 AZN məbləğində pul mükafatları və sertifikatlar, o cümlədən, IV və V yerləri tutan jurnalistlərə isə qiymətli hədiyyələr təqdim olunacaq.

Qeyd edək ki, bu yazı müsabiqəsi Mərkəzi Bank, ASA və İSB arasında imzalanmış "Sığorta savadlılığının artırılması, maarifləndirmə, təbliğat və qarşısıalınma tədbirlərinin sistemli və ardıcıl həyata keçirilməsinə dair qarşılıqlı əməkdaşlıq haqqında" Memorandum çərçivəsində təşkil olunur.

## ASA Maliyyə və İnvestisiya Forumunda iştirak etdi

Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyasının təşkilatçılığı ilə Maliyyə və İnvestisiya Forumu keçirilib.

Azərbaycan Sığortaçılar Assosiasiyasının da dəvətli olduğu və "İnvestor olmaq asandır" şüarı ilə keçirilən Forumda 200-dən çox yerli və xarici şirkəti təmsil edən 400-dən rəhbər şəxs, mütəxəssislər və dövlət qurumlarının nümayəndələri iştirak ediblər.



## "İnsan Hüquqları Aylığı" elan olundu




"İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" çərçivəsində hər il olduğu kimi bu il də 18 may – 18 iyun tarixləri "İnsan Hüquqları Aylığı" elan olunmuşdur.

Bu müddət ərzində insan hüquq və azadlıqlarının təşviqinə yönəlmiş müxtəlif maarifləndirici tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Bu təşəbbüs hüquqi maarifləndirmənin artırılması, hüquq mədəniyyətinin inkişafı və insan hüquqlarının daha effektiv müdafiəsinə xidmət edir.

## Sığortaçılar arasında şahmat turniri keçirildi



Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə sığortaçılar arasında şahmat turniri keçirilib.

7 mərhələdən ibarət olan turnirin yekununda qalib sığortaçılara diplomlar və qiymətli hədiyyələr təqdim olunub.

Bu kimi birgə tədbirlərin keçirilməsinin əsas məqsədi sığorta sektorunda fəaliyyət göstərən şirkətlər arasında mövcud kommunikasiyanın daha da inkişaf etdirilməsinə töhfə verməkdən ibarətdir.

## Sığortaçılara “Telefonda müştəri xidməti” mövzusunda təlim keçilib




ASA Tədris Mərkəzi tərəfindən "A-Qroup Sığorta" Şirkətinin əməkdaşları üçün peşəkar təlimçi Lətafət Rəhimlinin təqdimatında “Telefonda müştəri xidməti” mövzusu üzrə təlim təşkil olundu. Bu kimi təlimlərin keçirilməsi şirkətlərdə müştəri məmnunluğunun artırılmasına, eyni zamanda rəqabətli mühitdə şirkətlərin daha çox müştəri yönümlü fəaliyyət göstərməsinə hesablanmışdır. Təlim uğurla həyata keçirilmiş və iştirakçılar tərəfindən böyük maraqla qarşılanmışdır. Təlimin sonunda təlim iştirakçılarına müvafiq sertifikatlar təqdim olunub.

## Sığortaçılara “Risklərin idarə edilməsi” mövzusunda təlim keçilib

ASA Tədris Mərkəzi tərəfindən sığorta şirkətlərinin əməkdaşları üçün peşəkar təlimçi Elman Sadıqovun təqdimatında “Risklərin idarə edilməsi” mövzusu üzrə növbəti 32 saatlıq təlim proqramı təşkil olundu. Təlimin əsas məqsədi sığorta şirkətlərində Mərkəz Bankın tələblərinə uyğun olaraq “Korporativ İdarəetmə standartlarının” daha da təkmilləşdirilməsi və “Risklərin idarə edilməsi” funksiyasının daha da işlək olmasına dəstək verilməsidir. Müxtəlif şirkətlərdən 13 nəfər iştirakçının qatıldığı təlim uğurla həyata keçirilmişdir və təlimin sonunda iştirakçılara müvafiq sertifikatlar təqdim olunub.



## Qazaxıstanda daşınmaz əmlaklar icbari sığortalanacaq




Qazaxıstan, ölkədəki hər bir evin təbii fəlakətlərdən sığortalanmasını təmin etmək üçün "Daşınmaz əmlakın icbari sığortası" xidmətini tətbiq etməyə hazırlaşır. İcbari əmlak sığortası üzrə hüquqi infrastrukturun hazırlanması və 2026-cı ildə qüvvəyə minməsi planlaşdırılır.

Yeni qaydanın tətbiqinə səbəb olan zəruri amillər:

》 Qazaxıstan ərazisinin 75%-i təbii fəlakət (xüsusilə zəlzələ) riski altındadır;

》 Ölkənin yüksək təbii fəlakət riski altında olan ərazilərində könüllü əmlak sğortasının penetrasiyası 3.2%-dən yuxarı deyil;

》 Mövcud könüllü əmlak sığortasının təminat əhatəsi geniş deyil və bu könüllü məhsul tarif siyasəti baxımından vətəndaşlar üçün əlçatan deyil.

## Mopedlər icbari qaydada sığortalanacaq



Türkiyə parlamentində müzakirəyə çıxarılan "Yol hərəkəti haqqında" qanuna dəyişiklik layihəsi mopedlərlə bağlı dəyişiklikləri nəzərdə tutur. Qanun layihəsində diqqətə çatdırılır ki, mopedlər icbari məsuliyyət sığortasına cəlb olunmadığından, onların törətdikləri yol-nəqliyyat hadisələri nəticəsində digər avtonəqliyyat vasitələrinə və fiziki şəxslərə dəymiş maddi və mənəvi zərərin ödənilməsində problemlər yaranır. Buna görə də, qanuna nəzərdə tutulan dəyişikliklə mopedlər də icbari məsuliyyət sığortasına cəlb olunacaq.

## Aktuari gələcəyin peşəsi kimi TOP-10'a daxil olub.




Araşdırmalara görə, universitet məzunu olan və aktuariliyə yeni başlayanların orta illik maaşı Fransada 68 min dollar, Almaniyada 118 min dollardır. 10-15 illik təcrübəyə malik aktuarilərin orta illik maaşı Almaniyada 146 min dolları ötür və komanda rəhbəri vəzifələri üçün bu məbləğ iki, hətta üç dəfə yüksəkdir. ABŞ-də isə aktuariliyə yeni başlayanların orta illik əməkhaqqısı 116 min, 15 ildən çox təcrübəsi olanların isə 198 min dolları ötür.

Xalq Sığorta




*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***17.434 AZN;***



QALA SIĞORTA




*Sığorta növü: Avtomobil nəqliyyatı vasitələrinin tam sığortası*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***17.800 AZN***






QALA Hayat
Sığorta şirkəti

*Sığorta növü: İstehsalatda bədbəxt hadisələrdən icbari sığorta*
*Sığorta hadisəsi: Müddətsiz əlillik*
*Ödənilmiş sığorta məbləği:* ***60.295,07 AZN***

MEQA SIĞORTA

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***11.311 AZN***






MEQA HƏYAT

*Sığorta növü: Həyatın yaşam sığortası*
*Sığorta hadisəsi: Sığorta olunanın sığorta müddətinin sonunadək yaşaması halı*
*Ödənilmiş sığorta məbləği:* ***120.52,63 AZN***

ASA

AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI